Səh. 2 AZƏR MUSAOĞLU YAZIR...

Səh. 4 MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI 100 LARİ ARTACAQ

Səh. 2 KORONAVİRUS ƏLEYHİNƏ PEYVƏNDLƏMƏ İŞLƏRİNƏ HAZIRLIQ BAŞLAYIB

Səh. 5 SAQQALIN AĞARSIN, CƏNAB AVRAAM LİNKOLN!

Səh. 3 HACI BƏKİROĞLU YAZIR...

Səh. 5 AFİQ MUXTAROĞLU YAZIR...

Səh. 3 HANSI NAZİRLİKLƏRİN ƏMƏKHAQQI FONDU ARTIR?

Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA



İCTİMAİ QƏZET yeni_yol@mail.ru "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR
2020-Cİ İL
№018 (122)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## MƏHDUDİYYƏTLƏRİN TƏTBİQİ MÜDDƏTİ 6 AY UZADILA BİLƏR




Hökumətin koronavirus pandemiyası dövründə fövqəladə vəziyyət elan etmədən məhdudiyyətlər tətbiq etmək səlahiyyətinin müddəti 6 ay artırıla bilər. Bununla bağlı qanunvericilik təşəbbüsü hazırlanıb.

Parlamentin Səhiyyə komitəsinin sədri Dimitri Xundadze bildirib ki, "İctimai sağlamlıq" haqqında qanuna edilmiş düzəlişlər dövlətə koronavirusun səbəb olduğu ziyanın qarşısını almağa imkan verir.

"Ümid edirik ki, gələcəkdə düzəlişlərin qüvvədə qalma müddətinin uzadılmasına ehtiyac olmayacaq. Belə ki, 6 ay müddətində koronavirusa qarşı peyvəndin Gürcüstanda əlçatan olacağı gözlənilir", - D.Xundadze bildirib.

Qeyd edək ki, bu ilin iyulunda adıçəkilən qanuna edilən düzəlişlərlə Gürcüstan hökumətinə 2021-ci ilin yanvarın 1-dək ölkə ərazisində fövqəladə vəziyyət tətbiq etmədən məhdudlaşdırıcı tədbirlər həyata keçirmək səlahiyyəti verilib.



## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 1883 NƏFƏRƏ ÇATIB

Dekabrın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 1883 nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında qeyd edilib.

Məlumata görə, ölkədə koronavirusa yoluxanların sayı 194900 nəfər, sağalanların sayı isə 164786 nəfər təşkil edib.

Ölkə üzrə karantin rejimində 969 nəfər, stasionar nəzarətdə 6710 nəfər olub. COVID mehmanxanalarda olan şəxslərin sayı 2734 nəfər olaraq göstərilir.




## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRLİYİNDƏ ZƏFƏR BAYRAMI TƏDBİRİ KEÇİRİLİB

Azərbaycanın Gürcüstandakı səfirliyində Zəfər paradına həsr olunan mərasim keçirilib.

Tədbirdə Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan da iştirak edib.

Xanım səfir tvitter hesabında yazıb ki, Azərbaycan səfiri Faiq Quliyevin dəvəti ilə Bakıdakı Zəfər paradını azərbaycanlı qardaşları ilə birgə Azərbaycan səfirliyində izləyib.

"Böyük qürur duyduq. Xarıbülbül çiçəyini bağçamızda bayrağımızın yanında əkəcəyik. Qarabağ Azərbaycandır", - F.C.Yazqan yazıb.



*Mənbə: report.az*



# MER

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

MER – bəzən bələdiyyə rəhbəri, bəzən icra başçısı, bəzən isə MERitocrat (öz gücü ilə nail olan), MERciful (mərhəmətli), MERitorious (layiqli, nümunəvi); bəzən də MERcantile (hər hansı məsələdə öz maraqlarını nəzərə almaqla iş görən, mənfəətpərəst, şəxsi qazancını güdən, təmənnalı, pulgir), MERcenary (tamahkar, ac-göz, muzdur), MERchandiser (tacir), MERciless (rəhmsiz, qəddar) və s.

Haqqında dnışacağım MER isə bələdiyyə rəhbəri olmasa da mərhəmətli, layiqli, şəhərinin və əhalinin qayğısına qalan nümunəvi bir merdir.

Bu mer o merlərdən deyil ki, rəhbərlik etdiyi şəhərin yollarını bir xətt üzrə – A nöqtəsindən B nöqtəsinə, evdən işə və işdən evə tanıya, o da, iki ayağı ilə deyil, avtomobilinin dörd təkəri ilə. Bizim mer idarə etdiyi bələdiyyəni kənd-kənd, küçə-küçə gəzir, əhali arasına çıxır, problemlərin yığılıb qalaqlandığı yerləri özü axtarıb tapır, tanış olur, həllini icra edir.

Bu mer o merlərdən deyil ki, ayım gəlsin, günüm keçsin deyib düşündüyü-daşındığı, gizlədiyi-gözlədiyi aylıq maaşının köçürülməsi gün ola, özünə "premiyalar" yaza, əməkhaqqını artıra. Bizim mer isti kabinetlərdə bahalı telefonlarında oyun oynayan, ayda-ildə bir-iki sənədə qarnağrısı ilə qol çəkən məmurlardan daha çox, soyuqda əlləri göyərmiş süpürgəçiləri düşünür.

Bu mer o merlərdən deyil ki, ucuz tenderlərin keyfiyyətsiz işləri qarşısında feysbukda şəkil paylaşmaq üçün rəsmi pozalar verə. Bizim mer görülən işlərlə bir gün əvvəldən xəbər etmədən özü gedib tanış olur, keyfiyyətini yoxlayır, göstərişlərini verir. Yeri gələndə tənqid edir, məsuliyyətsiz, səriştəsiz işçilərini işdən azad edir, əvəzinə daha yaxşı işçilər təyin edir. Bizim merin lüğətində nepotizm sözü ümumiyyətlə yoxdur. O, hətta yağışın keyfiyyətsiz səkilərdə yığılıb qalan suyunu vedrələrlə özü daşıyacağına söz verir və sair.

Təəssüf ki, haqqında danışdığım mer real deyil, personajdır, Binəli İslamoğlunun "MER" qısametrajlı filminin balaca qəhrəmanıdır. Filmin rejissoru, ssenari müəllifi, operatoru və montajçısı da Binəli İslamoğlu özüdür.

Rolunu məharətlə ifa edən 5 yaşlı mer – İslam Akif bu gün yaşadığı şəhərin merindən daha populyardır.

10 dəqiqəlik və 16 dəqiqəlik filmdə (qeyd edim ki, film iki hissədən ibarətdir) Qardabaninin, demək olar ki, əhalini narahat edən əsas problemləri göstərilir. Və onu da qeyd edim ki, filmin birinci hissəsindən sonra filmdə göstərilən problemlər öz həllini tapmışdır. Sənətin gücü deyilən də elə budur yəqin ki.

Əlbəttə, tənqiddən nəticə çıxarmaq əvəzinə dözümsüzlük göstərənlərə, qıcıqlananlara, hədə-qorxu gələnlərə, meşə qanun-qaydası ilə cavab verənlərə nə sənət təsir edər, nə sənətin gücü. Sənətlə edilən tənqidə də gərək elə sənətinlə cavab verəsən, sənədinlə yox.

"MER" filmi Qardabanidə indiyənə kimi heç bir media qurumunun eləmədiyini etdi – şəhərin problemlərini çəkib göstərdi. Meriyaların mətbuat xidməti yalnız görülən işlərin şəklini çəkib göstərir. Televiziyalar yalnız mərkəzin problemlərini çəkib göstərir. Buna görə də sənətə dəyər verməli və dəstək durmalıyıq. Radiolarımız, televiziyalarımız olmasa da, kameralarımız, sosial şəbəkələrimiz var.

Yeri gəlmişkən, informasiya vakuumunda qalmaq Qardabaninin əsas problemlərindən biridir. Marneulidən fərqli olaraq Qardabanidə əhaliyə Azərbaycan dilində gündəlik məlumat çatdırılmır. Ana dilimizdə yayımlanan "Yeni YOL" qəzetidir ki, o da ayda iki dəfə çıxır. Bu başqa yazının mövzusudur.

Sevindirici haldır ki, son illər gənclər arasında filmə – çəkməyə və çəkilməyə maraq yaranıb. "MER" filmi ilə yanaşı Elmar Xəlilovun "Rayon", Anar Rafiqoğlunun "Sənət şəhidləri" və digər yerli qısa filmləri misal gətirmək olar. Və bu gənclərə həqiqətən də dəstək durmaq lazımdır. Kimlərəsə maşın almaq əvəzinə bu gənclərə yeni filmlər çəkmələri üçün maddi yardım edilsə, icmamız üçün daha faydalı olar. Əminəm ki, bizim balaca merin imkanı olsaydı, özü bu gənclərə maddi və mənəvi dəstək durardı.

Tarix boyu sənət insanların şüurlarında dəyişikliklər edib, bu dəyişikliklər beyinlərdən meydanlara transformasiya olaraq inqilablar yaradıb. Bu cümlə böyük səslənə bilər, amma inam və əməklə hər şey kiçikdən böyüyə doğru irəliləyib. Bizə siyasi mühitdən çox azad sənət mühiti – ədəbiyyat, film, teatr, rəssamlıq, musiqi – lazımdır. İndi bu yazını oxuyub, ac qarına sənət olmur, bizə çörək lazımdır, deyənlər də tapılacaq. Əlbəttə, çörək də lazımdır. Amma mən indi mədəniyyətdən danışıram, mədə niyyətindən deyil. Və tamaşalarımızı özümüz hazırlayıb, özümüz göstərməliyik ki, çörəyimizi də özümüz qazanaq. Yoxsa siyasətin çörək və tamaşalarına mürgü vurub dərin yuxuya gedə bilərik.

Sonda isə, bizləri öz filmləri ilə gülməyə, kədərlənməyə, düşünməyə vadar edən gənclərimizi təbrik edir, onlara işlərində, sənətlərində bol-bol uğurlar arzulayıram! Davamı gəlsin.

## VƏTƏN MUHARİBƏSİNDƏ GÜRCÜSTAN ƏSİLLİ 14 HƏRBİ QULLUQÇUMUZ ŞƏHİD OLUB



Azərbaycan Ordusunun 44 günə zəfərlə bitirdiyi Vətən müharibəsində şəhid olan hərbçilərimizin 14-ü Gürcüstan əsillidir.

Bu barədə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunan videokonfransda çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, bu, Gürcüstan azərbaycanlılarının Vətən sevgisi və fədakarlığının yeni bariz nümunəsidir: "Şəhidlərimizin müqəddəs ruhları qarşısında baş əyirəm. Səfirlik Gürcüstanda şəhidlərimizin anım mərasimlərinin təşkili, qohumlarının Azərbaycana getməsinə dəstək göstərib. Gürcüstanın azərbaycanlıların yığcam yaşadıqları bölgələrindəki məscidlərdə şəhidlərimizin əziz xatirələri yad edilib, ruhlarına dualar oxunub".

F.Quliyev deyib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda azadlıq müharibəsinə başladığı ilk günlərdən Gürcüstandakı soydaşlarımız dəstək və həmrəylik nümayiş etdiriblər: "Gürcüstanda Azərbaycana bir sıra dəstək aksiyaları keçirildi, azərbaycanlıların təmsil olunduqları təşkilatlar Gürcüstanın dövlət qurumları və beynəlxalq təşkilatlara birgə müraciətlər ünvanladılar. Soydaşlarımız həmçinin Azərbaycana humanitar yardımlar göndəriblər və Azərbaycan Ordusuna Yardım Fonduna pul vəsaitləri köçürüblər".

Qeyd edək ki, diplomatik nümayəndəliyin təşəbbüsü ilə onlayn formatda keçirilən tədbirdə Azərbaycanın Batumi şəhərindəki baş konsulu Pərviz İsmayılzadə, Gürcüstandakı azərbaycanlı icmasının nümayəndələri, iş adamları, din xadimləri, gənclər və ziyalılar da iştirak ediblər.

*Mənbə: report.az*

## BAŞ EPİDEMİOLOQ: "GÜRCÜSTAN KORONAVİRUS PANDEMİYASININ PİK DÖVRÜNÜ ARTIQ KEÇİB"



"Gürcüstan koronavirus pandemiyasının pik dövrünü artıq keçib". Bunu ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze bildirib.

Onun sözlərinə görə, ölkədə məhdudlaşdırıcı tədbirlər ilk nəticələrini verib.

Baş epidemioloq yoluxma hallarında azalmanın qeydə alınmasına baxmayaraq, arxayınlıq üçün əsasın olmadığını deyib.

A.Qamkrelidze ölkə üzrə tibbi maskadan istifadə göstəricisinin 65%-ə çatsa da, bunun yetərli olmadığını qeyd edib.

## KORONAVİRUS ƏLEYHİNƏ PEYVƏNDLƏMƏ İŞLƏRİNƏ HAZIRLIQ BAŞLAYIB




Gürcüstanda koronavirusa qarşı peyvəndləmə prosesinin davamlılığını təmin etmək üçün xüsusi işçi qrupu yaradılıb.

Qrupun əsas vəzifəsi peyvəndin vaxtında əldə olunması, ölkə miqyasında həm infrastruktur, həm də logistik baxımından bütün hazırlıq işlərinin həyata keçirilməsini təmin etmək olacaq.

Qeyd edək ki, ölkədə COVID-19-a qarşı peyvəndin 2021-ci ilin mart-aprel aylarında əlçatan olacağı gözlənilir. Hökumətin əldə edəcəyi vaksin ölkə əhalisi üçün pulsuz olacaq.

## FEVRAL AYINDAN BEYNƏLXALQ UÇUŞLARA QOYULMUŞ QADAĞA LƏĞV OLUNACAQ

Gürcüstanın iqtisadiyyat naziri Natia Turnava bildirib ki, "gələn ilin fevral ayından etibarən Gürcüstanda beynəlxalq uçuşlara tətbiq olunan bütün məhdudiyyətlər aradan götürüləcək".

Onun sözlərinə görə, pandemiyaya baxmayaraq, hava limanlarının genişləndirilməsi üzrə infrastruktur layihələrin icrası dayandırılmayıb.

"Kutaisi və Batumi aeroportlarının genişləndirilməsi layihələri yekunlaşmaq üzrədir. Yenilənən infrastruktur qonaqlar və vətəndaşlarımıza xidmət edəcək", - deyə nazir bildirib.

## HANSI NAZİRLİKLƏRİN ƏMƏKHAQQI FONDU ARTIR? 2021-Cİ İLİN BÜDCƏ LAYİHƏSİ



2021-ci ildə hökumət əməkhaqqı fondunu 60 milyon lari artırır, bununla yanaşı büdcə təşkilatlarında işlə təmin olunanların sayı da artır.

Belə ki, 2021-ci ilin büdcə layihəsinə əsasən, işçilərin sayı 112 570 nəfər olacaq (2020-ci ildə 112 214 nəfər idi), maaş fondu isə 1,556 milyard laridən 1,614 milyard lariyə qədər artır.

Ölkənin əsas maliyyə sənədinə görə, İnfrastruktur Nazirliyində işləyənlərin sayı azalır, ancaq əməkhaqqı fondu olduğu kimi qalır; Ədliyyə Nazirliyində isə əməkdaşların sayı azalır, əməkhaqqı fondu isə artır. Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin əməkhaqqı fondu demək olar ki, 6 milyon lari artır, ancaq müəssisədə gələn il də eyni sayda işçi çalışacaq.

***Yenilənmiş büdcə layihəsinə əsasən, nazirliklərin əməkhaqqı fondu və işçilərinin sayı aşağıdakı kimi bölüşdürülmüşdür:***

• **Hökumət Administrasiyası -** əməkhaqqı fondu – 7,2 milyon lari (2020-ci ildə 7,2 milyon lari), işçilərin sayı – 227 nəfər (2020-ci ildə 227 nəfər);

• **Maliyyə Nazirliyi -** əməkhaqqı fondu– 46,605 milyon lari (2020-ci ildə 45,990 milyon lari), işçilərin sayı – 337 nəfər (2020-ci ildə 337 nəfər);

• **İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi -** əməkhaqqı fondu – 12,315 milyon lari (2020-ci ildə 14,625 milyon lari), işçilərin sayı – 540 nəfər (2020-ci ildə 740 nəfər);

• **Regional İnkişaf və İnfrastruktur Nazirliyi -** əməkhaqqı fondu – 8,980 milyon lari (2020-ci ildə 8,980 milyon lari), işçilərin sayı – 324 nəfər (2020-ci ildə 339 nəfər);

• **Ədliyyə Nazirliyi -** əməkhaqqı fondu – 79,984 milyon lari (2020-ci ildə 79,519 milyon lari), işçilərin sayı – 5 069 nəfər (2020-ci ildə 5 075 nəfər);

• **Gürcüstanın İşğal Olunmuş Ərazilərindən Məcburi köçkünlərin işləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi** – əməkhaqqı fondu – 41,099 milyon lari (2020-ci ildə 34,174 milyon lari), işçilərin sayı – 2 887 nəfər (2020-ci ildə 2 439 nəfər);

• **Xarici İşlər Nazirliyi** – əməkhaqqı fondu – 9,415 milyon lari (2020-ci ildə 9,415 milyon lari), işçilərin sayı – 784 nəfər (2020-ci ildə 784 nəfər);

• **Müdafiə Nazirliyi** – əməkhaqqı fondu – 408,122 milyon lari (2020-ci ildə 395,389 milyon lari), işçilərin sayı – 40 646 nəfər (2020-ci ildə 40 646 nəfər);

• **Daxili İşlər Nazirliyi** – əməkhaqqı fondu – 525,2 milyon lari (2020-ci ildə 498 milyon lari), işçilərin sayı – 30 500 nəfər (2020-ci ildə 34 418 nəfər);

• **Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi** – əməkhaqqı fondu – 48,240 milyon lari (2020-ci ildə 42,383 milyon lari), işçilərin sayı – 3 539 nəfər (2020-ci ildə 3 539 nəfər);

• **Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi -** əməkhaqqı fondu – 86,283 milyon lari (2020-ci ildə 84, 758 milyon lari), işçilərin sayı – 8 369 nəfər (2020-ci ildə 8 369 nəfər);

Qeyd etmək lazımdır ki, büdcənin üçüncü dəfə işlənmiş layihəsinə əsasən, 2021-ci ildə hökumət 18,384 milyard lari xərcləməyi planlaşdırır. Bu isə cari illə müqayisədə 2,4 milyard lari çoxdur. 2020-ci ilin büdcə planına görə, xərclər 15,923 milyard lari təşkil edir.

*Mənbə: businesspressnews.ge*

## 44 GÜNDƏ BİTƏN 30 İLLİK HƏSRƏT



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Bütün dünya üçün bir bəla olan koronavirus pandemiyası ilə qədəm qoyan 2020-ci ilin çıxış astanasındayıq. Bu il kimiləri üçün ağrılı, acılı və itkilərlə yadda qalsa da, kimiləri üçün də xoş təəssüratlarla xatırlanacaq. Doğrusu, pandemiya səbəbindən dünyada çox sayda tələfatlar, fəsadlar meydana gəldi. Ancaq ilin sonuna doğru, dəqiq desək, sentyabrın sonlarında erməni işğalçılarının Azərbaycana qarşı atəşkəsi pozmaları nəticəsində başlanan müharibə və 44 gün davam edən bu savaş 2020-ci ilə damğasını vurdu.

30 ilə yaxındır ki, Azərbaycan xalqı bu anı gözləyirdi. Hətta bu xüsusda hakimiyyəti tənqid etdikləri belə tez-tez olurdu. Ancaq hər şeyin bir vaxtının olduğunu başa düşən rəhbərlik doğru zamanda doğru həmlə həyata keçirərək dünyada bəlkə də ən qısa sürən – 44 günlük bir müharibəylə öz torpaqlarını işğaldan azad etməyə nail oldu. 30 ildə Minsk Qrupunun həyata keçirə bilmədiyini Azərbaycan igidləri 2 ay belə çəkməyən bir müddətdə həyata keçirdilər.

Bəli, bu müharibədə iqtidarıyla-müxalifətiylə, qadınıyla-kişisiylə, qocasıyla-gənciylə bütün dünya azərbaycanlıları bir yumruq halına gəlməyi bacardılar. Həm siyasi arenada, həm milli özünüdərkdə, həm də mənəvi duyğularda əl-ələ verən xalq düşmənə lazımi zərbəni endirməyi bacardı. Millət anlayırdı ki, bir tək ön cəbhədə vuruşmaqla vətən xilas olmaz. Ona görə də arxa cəbhədən də ən azı onlar qədər əmək sərf olundu.

Mən bu savaş sırasında yetişməkdə olan Azərbaycan gəncliyində nə dərəcədə vətən sevgisinin olduğunu, milli və mənəvi dəyərlərə bağlılığı gördüm. Onlara bu müqəddəs duyğuları aşılayan qürurlu, vətənpərvər valideynləri gördüm. Vətən torpaqlarını qorumaq və düşməndən azad etmək naminə qərib ellərdən güc bəla ilə vətənə gələrək döyüş meydanına yollanan oğulları tanıdım. Əsgərlərə öz əlləriylə yemək bişirib göndərən, nəvəsinə bir dənə belə erməni öldürmədən evə qayıtma deyən nənələr gördüm. İki övladını yanına alaraq döyüşə yollanan atalar tanıdım... Bəli, bu sıralamanı çox uzatmaq olar.

Bu müharibə onu göstərdi ki, yetişməkdə olan gənclik zənn etdiyimiz qədər də pozulmayıbmış. Vətən qayğısı, Qarabağ həsrəti çəkən gənc nəsil öz qanı bahasına o torpaqları azad etdi.

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.

Sözlərindən ilhamlanan igid oğullar vətənin daşını, qayasını düşməndən azad etmək və qorumaq uğrunda canlarını fəda etdilər.

Bəli, bu savaşda Azərbaycan xalqı 2783 gəncini, igidini, oğlunu itirdi. Bu igidlərin hər biri orduya yazılarkən, döyüşə yollanarkən geri dönməmək kimi bir aqibətin onları gözlədiyini bilirdilər. Bununla birlikdə onlar şəhadət məqamının yüksəkliyini, şirinliyini də anlamışdılar. Məhz bu sevgi onları bu döyüşə yolçu etmişdi.

Bu 44 günlük müharibə əsnasında Azərbaycan xalqı da dostunu və düşmənlərini yaxşı tanıdı. Bu xalq Türkiyənin kim olduğunu da, Fransanın kim olduğunu da açıq-aydın gördü. Bəli, savaş başlayandan bitənə qədər daim yanlarında olan və hər cür dəstəyi göstərən Türkiyənin dostluğu da, hər fürsətdə düşmənə arxa çıxan Fransanın düşmənliyini də gördülər. Hə, bir də, dost kimi görünməyə çalışan, ancaq əl altından düşməni dəstəkləyən İranın mövqeyini də Azərbaycan xalqı gözardı etmədi.

Ali Baş Komandanın yerində düzgün qərarları, televiziya kanallarına verdiyi yüksək səviyyəli müsahibələri də Azərbaycan ordusunun gücünə güc qatdı.

Və sonda 10 dekabr paradı. Qürurdan gözlərim doldu.

Savaşa qatılan igidlərin hər biri sağdır mənasında Türkiyə ordusundan da 2783 hərbçi Azərbaycan ordusunun cərgələrində parada qatıldı. Budur qardaşlıq. Sənin olmadığın yerdə mən varam deyə bilməkdir.

Arazı ayırdılar,
Mil ilə doyurdular...

Çıxışı isə dostla düşməni ayird etməyə kifayət etdi.

Ən qısa zamanda, ən uğurlu strategiyalarla dünya tarixində yeni səhifə açan qələbən mübarək, can Azərbaycan!

Qarayazı elinin igid oğlu, şəhidimiz İlqar Mirzəyevin də Milli Qəhrəman adına layiq görülməsi xalqımız kimi məni də bəxtiyar etdi.

Bu savaşda şəhid olan igidlərimizə Allahdan rəhmət, qazilərə və yaralılara şəfa diləkləri ilə...

# BERİKA ŞUKAKİDZE TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRƏ VERİLMİŞ SON ŞANSDAN DANIŞIB

Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin rəhbəri Berika Şukakidze təcrübəçi (praktikos) müəllimlərə verilmiş sonuncu şansdan danışıb.

Onun sözlərinə görə, yayda keçiriləcək imtahanı 4200 müəllim gözləyir. Əgər onlar statuslarını yüksəldə bilməsələr sentyabrdan məktəbə girmək hüquqları olmayacaq, buna baxmayaraq, gələn il yenə də imtahan verə biləcəklər.

"Biz dedik ki, pandemiya dövründə insalara əlavə stress yaratmağımız ədalətsizlik olardı. Təcrübəçi müəllimlərə yayda yenə imtahan vermək şansı verildi. 2021-ci ilin sentyabr ayında onlar imtahan vasitəsilə statuslarını yüksəltməsələr öhdəliklərini yerinə yetirə bilməyəcəklər. Yəni əgər 4200 müəllim imtahan şərtlərini qane etməsələr, bu onlara verilmiş son şans olacaq. Ancaq bir ildən sonra onlar yenidən imtahan verərək peşələrinə qayıda biləcəklər", - deyə B.Şukakidze bildirib.

Müəllimlər Evinin sədri izah edib ki, pedaqoqların yaşı həlledici deyil, əsas peşəkarlıq və kvalifikasiyadır: "Biz iki il əvvəl müəllimlər sxeminin islahatına başlayanda heç bir halda insanın yaşına diqqət etməməliyik dedik. Bürokratın kiminsə yaşını diqqətə yetirməsi zərərlidir. Biz peşəkarlığa və kvalifikasiyaya diqqət yetiririk.

Yeni sxemə əsasən, biz peşə inkişafı baxımından məktəbin bazasına keçirik. Bu o deməkdir ki, indi top məktəbin meydanına atılır. İndi məktəb müəllim-



in peşəkar inkişafını təmin etmək üçün hər şey etməlidir".

## QIŞ TƏTİLİNİN MÜDDƏTİ UZADILIB



2020-2021-ci tədris ilinin akademik təqviminə görə, qış tətili 30 dekabrdan 14 yanvara qədər davam edir. Ancaq bu il şagirdlərin tətil müddəti uzadılıb.

Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, koronavirusun yayılmasının qarşısının alınması məqsədi ilə elan edilmiş məhdudiyyətlərə görə 3 yanvardan 15 yanvara qədər (15 yanvar da daxil olmaqla) ölkədə istirahət günləri olacaq. 16-17 yanvar şənbə-bazar günlərinə təsadüf etdiyi üçün təhsil 18 yanvarda, bazar ertəsi bərpa olunacaq. Yanvarın 19-u Natlisğeba bayramı qeyd olunduğuna görə məktəblər yenə istirahət edəcək. Belə ki, şagirdlər və müəllimlər qış tətili müddətində 18 gün – dekabrın 30-dan yanvarın 17-nə qədər istirahət edəcəklər.

Qeyd edək ki, qanuna əsasən, şagirdlərdən fərqli olaraq müəllimlərin rəsmi istirahət günləri 1,2 və 7 yanvar tarixlərindədir, ancaq pandemiyaya görə qaydalar dəyişdi. Distant təhsil olan halda müəllimlər də şagirdlər kimi istirahət etməli olacaq və şagirdlərin dərsə getdiyi məktəblərdə də müəllimlər 18 yanvara qədər dincələcəklər. Çünki bu il istirahət günlərinin sayı hamı üçün artırılıb.

Xatırladaq ki, Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, təhsil prosesi ölkənin əksər məktəblərində distant rejimdə aprılır. Gələn semestr üçün rejimin dəyişib dəyişməyəcəyi hələ məlum deyil. Qeyd olunan vəziyyət ölkədə epidemioloji vəziyyətə bağlıdır.

## TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRİ ƏVƏZ ETMƏK ÜÇÜN VAKANSİYALAR NƏ ZAMAN ELAN EDİLƏCƏK?

Müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxeminə daxil edilmiş dəyişikliklərə əsasən, gələn tədris ilinin başlamasına bir ay qalmış məktəblər statusunu yüksəldə bilməyən təcrübəçi müəllimlərin yerinə vakansiyalar elan edəcək.



Hökumət tərəfindən yayımlanmış son sərəncama əsasən, 2021-2022-ci tədris ili başlayana qədər fənn yaxud peşə qabiliyyəti imtahanında iştirak edən və statusunu yüksəldə bilməyən (statusu qaldırmaq üçün lazım olan 19 krediti toplaya bilməyən) təcrübəçi müəllimlərin yerinə məktəb administrasiyası 2021-2022-ci tədris ilinin başlamasına 1 ay qalmış müsabiqə elan edəcək.

Həmin sənədə əsasən, 2020-ci ilin 30 aprel tarixinə qədər müəllimlər üçün imtahana qeydiyyat olmuş təcrübəçi müəllimlərin 2021-2022-ci tədris ili başlayana qədər təşkil edilmiş fənn yaxud peşə kompetensiyasını təsdiqləmək imtahanında iştirak etmək hüququ var.

Son məlumata görə, müəllimlərin peşə inkişafı sistemində 5000-ə yaxın təcrübəçi müəllim var. Onların əksəriyyəti müəllimlik kompetensiyasının təsdiqlənməsi imtahanına qeydiyyat olunub.

Qeyd edək ki, imtahan payızda keçirilməli idi, ancaq nazirliyin qərarına görə, təxirə salındı.

## BAŞ VƏ APARICI MÜƏLLİMLƏR 2022-Cİ İLƏ QƏDƏR STATUSLARINI YÜKSƏLDƏ BİLMƏYƏCƏKLƏR



Müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxeminə daxil edilmiş dəyişikliklərə əsasən, baş və aparıcı müəllimlər 2022-ci ilə qədər statuslarını yüksəldə bilməyəcəklər.

Hökumətin sərəncamında qeyd olunub ki, baş və aparıcı müəllimlər statuslarını yüksəltmək üçün digər məcburi fəallıqlarla yanaşı peşə qabiliyyəti imtahanı da verməlidirlər.

2020-ci ilin 27 noyabr tarixində qəbul edilmiş sərəncamda yazılıb ki, Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi baş və aparıcı müəllimlərin statuslarını qaldırmaları üçün nəzərdə tutulmuş peşə qabiliyyəti imtahanının verilməsini 2022-ci ildən təmin edəcək. Bu isə o deməkdir ki, qeyd olunan müəllimlər üçün 2021-ci il ərzində statusu qaldırmaq mümkün olmayacaq.

Nəzərə alın ki, yalnız kənar müşahidədən keçməli olan və bu fəallığı 31 yanvara, yaxud 15 iyuna qədər uğurla həyata keçirəcək baş müəllimlər və ya 2020-2021-ci tədris ilinin 2-ci semestri başlayana qədər doktorluq dərəcəsi qazananlar imtahan vermədən statuslarını yüksəldə biləcəklər.

## MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI 100 LARİ ARTACAQ



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Ekaterine Dqebuadze nazirliyin 2021-ci il büdcəsində müəllimlərin əməkhaqlarının artırılması ilə bağlı açıqlama verib.

"İqtisadi problemlərə baxmayaraq mövcud pandemiya şəraitində Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin əsas prioriteti vətəndaşlarımızın firavanlığının qayğısına qalmaq və keyfiyyətli təhsilin təmin edilməsidir. Ona görə də təhsilin və elmin Gürcüstan hökumətinin əsas prioriteti olaraq elan edilməsi və büdcədə hər il artımı nəzərdə tutan qərarı qüvvədə qalır.

2021-ci ilin büdcəsində artıq nəzərdə tutulub ki, gələn ilin yanvar ayından tam qrafiki (15 saat) olan baş, aparıcı və mentor müəllimlərin əməkhaqqı 100 lari artırılacaq. Tam qrafiki olmayanların da proporsional hesablama qaydasına uyğun olaraq əməkhaqları artacaq", - deyə E.Dqebuadze bildirib.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə edən: Aynurə ƏLİYEVA*

# SAQQALIN AĞARSIN, CƏNAB AVRAAM LİNKOLN!

Elm, sənət, şəxs bildirən *-şünas* şəkilçisindən leksik şəkilçi olaraq danışmayanda iddia edənlər həmişə tapılır ki, bəs deməzsənmi, bir halda ki, "şünas" – xəbəri, məlumatı olan deməkdir, deməli, ***şünaslıq*** da əslində həm də düşüncə tərzi, həyat tərzi olmalıdır. Misal üçün, sənətşünas, teatrşünas, musiqişünas, ədəbiyyatşünas, şərqşünas və sairə.

Mübahisə eləmirəm.

Amma israrla arazbarı sözümün toz-tozanaq təkrarına qayıdıb bir də demək istəyirəm: əgər adı indi tez-tez hallanan Süsən-Sünbüldə birdən-birə bu qədər "saqqalşünas" peyda olmasaydı, əgər bu *saqqal məsələsi* bir zamanlar birlik, yekdillik simvolu olan bir kəndi bu şəkildə az qala paramparça eləməsəydi, saqqalın "fəlsəfəsi" illüziyalarını yaratmasaydı, bəzi *lamberseksuallıq* labirintlərinə gətirib çıxarmasaydı, qələmin quluncunu qıraraq ona qıyardımmı heç? Başqa sözlə və ana xətt olaraq, əgər bu kəndin adı Sadaxlı olsaydı, Dəllər, ya da Faxralı olsaydı, yəni Süsən-Sünbül olmasaydı, başım bədənimə niyə ağırlıq edirdi ki?

Ömürbillah, kənd adlarımıza (fərq etməz: şəhər, ya da qəsəbə) ayrı-seçkilik salmaram, şükürlər olsun, hamısı bir-birindən gözəldir, amma axı Süsən-Sünbül xınagül xalq mahnımızın adındandır! Kim istəyər ki, sevdiyi kəndin adı sevdiyi mahnının adına, sözü sözünə, özü özünə layiq olmaya? Xan əmidən üzü bu yana, bu mahnını Nuriyyə Hüseynovanın, ya da Gülderen Taştan Yavuzun ifasında tək bircə yol dinlə, gör könül candan ayrılırmı! Gör saqqal saxlayan da, saqqal saxlamayan da, lap elə kosa Səfər də sənə doğmalaşmırmı? Axı Allahın altı böyükdür və saqqallıya da, saqqalsıza da, lap elə bığlıya da, bığsıza da həmişə yer var!

Nə isə, mətləbdən uzaq düşdük deyəsən...

...Süsən-Sünbüldə ikidə-birdə iddia edənlər də tapılır ki, guya bu saqqal məsələsi, yəni saqqalın əvvəlcə mübahisəyə, sonra da münaqişəyə çevrilməyinin səfabəxş səbəbkarı Arazgül xanımdır. Yəni əgər Arazgül xanım (diqqətinizə çatdırım ki, Süsən-Sünbüldə qadın adlarının əksəriyyətində bir "gül" hissəsi də olur: Yazgül, Xəzangül, Fatmagül, Güldərən və s.) adamları ABŞ prezidenti (ah, Amerika, Amerika) Avraam Linkolna yazılmış məktubla tanış eləməsəymiş, bu mafraq mərəkə də qopmazmış. Yəni əsas "günah keçisi"ni tapmaqdır. Bizə də nə var? Münaqişə üçün bəzən heç nifaq alması da lazım olmur. Dava kağızımız əlimizdə deyilmi?

Təsəvvür edirsinizmi? On bir yaşlı bir qız (Qreys Bedellu) Linkolna yazır ki, "... Siz saqqal saxlasanız, daha da təmkinli görünəcəksiniz. Sifətiniz çox arıq olduğuna görə, saqqal Sizi daha yaxşı göstərəcək. Üstəlik də, saqqal bütün xanımların xoşuna gəldiyi üçün onlar öz yoldaşlarını və istəklilərini məcbur edəcəklər ki, Sizə səs versinlər. Və beləliklə də Siz prezident seçiləcəksiniz".

Linkoln məsləhəti dinləyir və saqqal saxlamağa başlayır.

...Orda ayla, illə, burada müxtəsər dillə...

O, prezident seçildikdən sonra görüşə gəlir və tədbirə toplaşanların yanında həmin qızın əllərini yuxarı qaldıraraq deyir: "Mən ABŞ prezidenti seçildiyimə görə bu kiçik qıza minnətdaram".

Həmin məşhur məktubun tarixçəsi xeyli uzundur, tapıb müfəssəl oxuya bilərsiniz.

Amma Arazgül xanım heç də Qreysdən az məşhurlaşmadı; Linkoln sanki Qreysin deyil, Arazgül xanımın məsləhəti ilə saqqal saxlayıbmış. Yeri gəlmişkən, Arazgül xanımın ərinin saqqalı üçün sinov gedənlər də az deyildir.

Süsən-Sünbüldə "Saqqala salam vermirsən", "Saqqal qoydum ki, sözüm ötə" misilli ifadələr baş alıb getdi. Hətta ölkə prezidentinə, baş nazirə saqqalla bağlı məsləhət məktubları yazanlar da tapıldı: bəs deməzsənmi, saqqalı elə dara, belə uzat... Hətta həmin ili kənddə "saqqal ili" elan etmək istəyənlər də tapılmışdı. Halbuki, istəyi qaynaşanların bəziləri vaxtilə "saqqal vergisi" tətbiqinə keçmək istəyənlərdi! Beləcə, saqqal darağına çevrilmək həvəsi dumduru Süsən-Sünbül havasını korlayıb gedirdi.



Amma cəmi-cümlətanı 10-15 il bundan əvvəl Süsən-Sünbüllülər Makedoniyalı İskəndərin öz döyüşçülərinə "Təcili saqqalınızı qırxın!" əmrindən danışırdılar. Çünki düşmən tərəfin əsgərləri onları saqqallarından tutub sürüyərək məğlub edirdilər.

Saqqal saxlayanlar üçün dərsə "Saqqal insanı filosof eləmir" aforizmi ilə başlayırdılar. Onları M.Ə.Sabirin "Ay nənə, bir qırmızı saqqal kişi", "Xandostu, amandı, qoyma gəldi" satiraları ilə hədəf alırdılar.

Bu, əslində hər şeyin axıb-dəyişdiyi vahid Vəhdət dünyasında nələr olmur?

Qısası, Fridrix Engelsin, Fidel Kastronun, Lev Tolstoyun saqqalları yenidən kopyalanmağa başlandı.

Amma finala qədərki kulminasiya nöqtəsindən sonra bir razvyazka gəlmirmi?

...Tərəflər arasında, yəni saqqal tərəfdarları ilə əleyhdarları arasında az qala qan düşəcəkdi ki, uca Allah özü betərindən saxladı.

Əhvalat isə belə olmuşdu: elə ki, qadınlara qarşı zorakılıqdan danışılmağa başlandı, müvafiq olaraq da hüquq müdafiəçiləri peyda oldular, müdafiə konvensiyaları gah öz mülayim, gah da sərt üzünü göstərdi, elə ki, "ərimdir (saqqallı, ya saqqalsız, fərq eləməz), sevər də, döyər də" prizması tənəzzülə uğradı, bax, belə günlərin birində gözəllər gözəli Yaygülə eyni yerdən, özü də artıq beşinci dəfə ədəlli-bədəlli elçi gəldi. Hələ astanadaca namizədin saqqalını görən qız bir ayağını beş başmağa dirədi ki, getmirəm, vəssalam! Çox dil tökdülər, çox yola gətirməyə başladılar. Nə fayda?

Yer həmişə qulaqlıdır. Onda hüquq müdafiəçiləri işə düşdülər, konvensiyalar görkəmə çıxdı, Süsən-Sünbüldə qadın zorakılığından danışmağa başladılar; guya Yaygülü güclə ərə verirlərmiş. Guya zor tətbiqi var, sərtlik var, məcburiyyət var və sairə. Adı heç zaman mənfiliyə hallanmayan Süsən-Sünbül qırılma anında idi!

Amma finalda belə məlum oldu ki, qızın, sadəcə olaraq poqonofobiyası var imiş; yəni saqqaldan qorxurmuş. Misilləmə misal üçün, hələ uşaq vaxtlarından hətta Şaxta babanın pambıq saqqalından-parikindən də çəkinirmiş!

Hüquq müdafiəçiləri çəkilib qonşu qəsəbəyə getdilər.

...Qocalmaq, uzun ömür sürmək diləkləri ilə dolu alxış-alqış mənasında, **saqqalın ağarsın sənin, cənab Avraam Linkoln!** Saqqalın Mirzə Virusun da, Mirzə Mikrobun da, elə mənim də saqqalımızdan çox, həm də çox uzunömürlü çıxdı!

***İBRAHİMXƏLİL***

*AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ*

# YAĞIŞLI SÖHBƏT

Yağ, yağ, planın geridə qalıb. Elə bil dalınca atlı düşüb, üzərinə öhdəlik götürübsən. Bir az da yeyin yağsan. Əskiyin çıxar. Bəs yayda camaat Lələ Kərəm olanda, dilini bir qarış çıxaranda, yarpaqlar xəzana dönəndə hansı cəhənnəmdə idin, səsin içinə düşmüşdü?

Sənə yağma deyənmi var? Yağa-yağa da dur. Altına çətir ha tutası deyiləm. Adamda üz yaxşı şeydir. Bu torpaq dillənmir, bu daş lal olub deyə sən təpələrinəmi döyəcəksən? Üç gün olar, beş gün olar, bu da ötəndə bir həftə. Sən həftəni də o tərəfdə qoydun.

Bu qoca nə gəzir yağışda-qiyamətdə? Soruşan gərək, niyə evində oturmursan? Evində itmi ölüb? Qəribə adamsan, vallah. Bəlkə otura bilmir? Bəlkə heç evi yoxdur və ya xanımı deyingənliyi ilə evi cəhənnəmə çevirib? Papiros tüstülədənin biridir bəlkə? Bəlkə gəlinilə qabaq qənşər əyləşib tum çıtlayır, siqaret tüstülədir, gər kişi səsiylə evi insan yaşamayan bir hala gətirib? Qoca da canını götürüb düşüb küçələrə. Nə desən olar. İndi də yumurtası tərs gəlmiş toyuq kimi tüyünür. Yüz faiz sıxışıb. Qocalıqdır, həm də soyuq. Olan şeydir. Zalım oğlu, özünü o böyük ağacın arxasınasa salsan. Bir camaatın çiş-miş işinə qarışmağın qalmışdı, ona da qarışsan, yaxandan medal asarlar.

İkinci qatdakı yoluq qarğaya oxşayan qonşu qadın hara gedir, görən ola? Dörd it, iki uşaq. Yağış da şıdırğı yağmasında. Uşaqlarınsa əlindən tutsan, şütüyən maşınları görmürsənmi? Korluğunmu var? Hardan tutsun, itlərdən biri qucağında, o birilərin də ipi əlində. İki əli də boş deyil. Elə bil əzizi Volfu qucaqlayıb. Bəlkə Volf deyil, Adolfdu, Hansdı? Ya Yevadı, Heldadı? Nə bilim, ilk ağlıma gələn Volf oldu.

Yoluq qarğanın qəfiləsi işıqforda dayandı, yolu keçəcəklər. Hə, parka gəzintiyə çıxırlar. Havalarını dəyişəcəklər. Yağış da elə deyir, başınızın ortası haqqı. Bu dəqiqə dabanı üstə geri dönərsiniz. İtlər bir az rahatlansınlar. Bu yoluq qarğa da arxalarına düşüb güdəcək, onların pisliklərini it qurut götürən kimi toplayacaq. Allah, daşını yağdır. Vallah, dərdin-azarın yoxdur sənin, cəhənnəmə toplasın, qara yol da bəridə qalsın.

Bir buna baxsan. Anqutdu elə bil. Dabanları yerə dəymir. Yağış elə bil bunun yox, mənim başıma yağır. O gün gördüyün qaşqaldaqdı, deyəsən. Hə, özüdür. Əlini-qolunu niyə ölçür? Görmürsənmi qulağındakı qulaqcığı? Yekə gözün yiyəsinə xeyri budur də. Telefonla danışır. Yəqin qız da hardasa gözləyir. Nə bilirsən gözlədiyini? O gün görmədimmi? Qız elə baxırdı ki, bu qaşqaldağa. Deyərdin yerdə də, göydə də təkcə budur, qalan kişilər qırılıb. Kişinin lotoreyası vurub deynən. Sən canın, özün de, bunda seviləsi nə var? G...ünü əritsən bir şorbalıq yağ çıxmaz. Kiri, sən Allah, könül sevən göyçək olar. Olsun, olsun nə deyirəm. Bir onu deyəcəm, yoxsa çatlayaram, gözüyün yağına qıkk eləsinlər, a belə qız. Gen dünyada başına oğlan qəhət imiş, gözünü yumub, əlini uzadıb.



...Yağış üstünə təpinilmiş kimi, şıdırğı rəqsə keçir...

***Afiq MUXTAROĞLU***

*Almaniya, Hessel*

# İOSİF QRİŞAŞVİLİNİN “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” ƏSƏRİNDƏN BİR PARÇA

## CEHİZ



*(əvvəli ötən sayda)*

“Cehiz” bizdə ta qədimdən bu günə qədər gəlib çıxan həyat və məişətin bütöv zəncirinin həlqələrindən biri idi, amma son zamanlar bu adət həddindən artıq eybəcər şəkil aldı. Ərgən oğlan qızın mənəviyyatına və zahiri gözəlliyinə heç də dəyər vermirdi və yalnız cehiz tələb edirdi.

Əgər müsəlman ölkələrində qız valideyn üçün gəlir mənbəyi (Ərgən oğlan qızın valideyninə 50 dəvə və ya 500 qoyun verirdi) idisə, bizdə əksinə, qızı ərə verirdilər və həm də öz ağırlığında qızıl yollayırdılar. Türklərin bizim barəmizdə bir lətifəsi də vardır: Gürcüstanda iki şeyi müftə verirlər və üstünə də pul qoyurlar – zibili və ərgən qızı.

Türk qadınları yaxşı qiymətə alınanda fəxr edirdilər, bizim qadınların xoşbəxtliyi isə öz nişanlısına bahalı cehiz və “cib pulu” (rüşvət) aparmaqda idi. Bu məsələ səksəninci illərdə mübahisəyə də səbəb oldu. N.Nikoladze ərgən oğlanlara bu cür sözlərlə müraciət edirdi: “Arvad alan zaman cehizdən daha çox xasiyyətinə və əxlaqına fikir verin” *(Bax. N.Nikoladzenin “Yazısı”, I kitab, 1890-cı il, səh.25).*

Bu epidemiya aşağı təbəqəni daha çox bürüdü. Bizimsayağı gəlin hiss edirdi ki, cehizsiz ər ailəsində zülmə məruz qalacaqdı və buna görə “itilənmiş qılınc kimi” valideynlərin gözünə girirdi:

**“İndiki qadınlar,**
**İtiləmiş qılınclar,**
**Analarına yalvarırlar,**
**Bizə hazırlayın rüşvətləri”.**

Əgər bu “indiki qadınlar” belə mühakimə edirdilərsə, “indiki oğlanlar” da onlardan geri qalmırdılar:

**“Suda balıq üzür,**
**Quyruğunu bulayır, başını yox,**
**İndiki oğlanlar,**
**Rüşvət gəzirlər, arvad yox!”**

Şəhər xalq poeziyasında bunun barəsində bütöv ədəbiyyat mövcuddur. Bax, o dövrkü ərgən oğlan nə deyir:

**“İndi bizim zamanda,**
**Qızın varsa əgər quruşu,**
**Lap elə götürək, olsun kötüyü.**
**Dursun qəssabxanada.**
**Təki bircə pulu olsun,**
**Alaram, allahıma, dinimə and olsun!..**
**Lap elə döymək bilsin,**
**Versin mənə əzab, işgəncə.**
**Guya bəyənməyim?**
**Yox, mənim günəşim!**
**Təki bircə pulu olsun,**
**Alaram, allahıma, dinimə and olsun!..**
**Lap olsun acı dili,**
**Şən həyatımı zəhərləsin,**
**Pulun xətrinə, pula görə,**
**Olmalıdır məndə səbr.**
**Təki bircə pulu olsun,**
**Alaram, allahıma, dinimə and olsun!..**

*(“İveriya”,1974-cü il, № 167 (Şeir Anton Qanciskareliyə məxsusdur).*

Bu oğlan əgər belə “oxuyursa”, o biri ərgən oğlan birbaşa kinayə ilə bəyan edir:

“Arvad almaq istəyirəm, hazırlaşın analar,
Gətirin şəhərə, evinizdə oturub qalanı!”

Və sonda vurğulayır ki, mənim nişanlımın şəksiz, “böyük-böyük evləri”, “təzə-təzə mebelləri”, Avropasayağı bəzədilmiş otaqları, “yataqda mərmər vannaları” və sair olmalıdır. Təsəvvür edin, bu cür şeirlərə Nino Orbeliani də əks-səda verib. O bu cür “istəklərin” müəllifinə cavab verir və qeyd etmək lazımdır ki, “yataq vannaları” barədə yazır:

**“Sən neyləyirsən mərmər vannaları,**
**Əgər istilənsən - Kürdə də çimərsən,**
**Sən axtar gözəl-göyçək qızları,**
**Əgər başqası rast gəlsə, ona gözün düşsə,**
**Sən ara-axtar, mənim isə yoxdur vaxtım,**
Sənin ricana çox gülməyim gəlir” *(Nino Orbelianinin “Şeirləri”, 1885-ci il, səh.35).*

Nino Orbelianinin şeirindən Mixeil Qordadze yararlanır. O bu cür “cehizə” qarşı çıxır:

**“Mən neyləyirəm, cehizi və pulları?**
**Pullar üçün gözlərimi bağlayım,**
**Gözəl və ləçər arvad alım,**
**Babamın ruhu xeyir duasını versin?**
**Çirkin olsun, fəqət olsun ağıllı,**
**Utancaq, yaxşı, nəvazişli,**
**“Modna” barəsində narahat etməsin,**
**Və evdə nəyisə hazırlamağı bacarsın”** *(M.Qordadzenin “Şeirləri”, 1893-cü il, səh.12).*

Əlbəttə, bu cür ədəbiyyat öz yolu ilə gedirdi, həyatın ağrı-acısı da öz yolu ilə. Cehizin siyahıları isə hər halda yox olmadı.

Bu cehiz üçün siyahılar zamana və zümrəyə uyğun olaraq tədricən dəyişirdi, maddi dəyərləri ilə, eləcə də zahiri üsulu ilə.

Bizim əlimizdə bu cür “siyahıların” bir neçə nümunəsi vardır. Gürcüstanda cehizə elə qədim dövrün özündə də necə bir əhəmiyyət verilməsi, sonralar bu “siyahıların” necə də cılızlaşması və sonda bu ənənəvi “rüşvətin” hansı şəkillə və hansı üsulla bizə qədər gəlib çıxması barədə oxucuda təsəvvür yaratmaq üçün onları qismən sadalamaq lazımdır.

Əgər Anuka Batonişvilinin cehiz siyahısında “İnsanlar tərəfindən verilən sərvət və mirvarilər” xatırlanıbsa, əvəzində, son dövrkü cehizin siyahıları birbaşa...

Lakin başdan başlamağımız daha yaxşıdır:

**Birinci siyahı:**

Onlardan cüzisini sizə nəql etdiyimiz cehiz yanımızdadır – Və bu “kiçik” 16 səhifəlik dərc olunmuş vərəqdə sərgilənib – İnsanlar tərəfindən verilən bəzək-düzək əşyaları və sərvət, təmənnasız mirvarilər, siyahıya alınmamış qızıl və gümüş, qulluqçular özlərinin güllə qutuları ilə, aznaurlar özlərinin sərəngləri ilə *(sərəng – ictimai asayiş qoruyucularının rəisi – M.M.)*

Gürcü ədəbiyyatı: Rəngli rəsmlərlə “Pələng dərisi geymiş pəhləvan” cazulu ilə *(bəzəkli boxçası ilə – M.M.)* bir ədəd, “Leyli və Məcnun” bir ədəd, “Yusif və Züleyxa” bir ədəd, “Saamiani” *(Qədim gürcü ədəbiyyatının tərcümə olunmuş abidəsi, Firdovsinin “Şahnamə”sinin gürcü versiyaları silsiləsi əsərlərindən biri)* bir ədəd.

Vaxt keçirmək üçün idrak əyləncələri: Oyun üçün şahmat, şırmayı nərd, qancafa, savzisur *(İrandan götürülmüş oyun – M.M.),* dovşan və ov quşu, siçan-pişik və sair başqa xırda oyuncaqlar.

Qadın bəzək-düzək şeyləri: Bir çox xırda orta iri incilərlə siyah samur dərisindən tikilmiş mirvari papaq, yelpik, yaxşı və mərifətli ağız mirvarisi *(Qədim Tiflisdə dişləri mirvari ilə təmizləyirdilər – M.M.),* bir cüt qulaq tənəsi, iki qırmızı Badaxşan ləli ilə, iki yetim incisi ilə *(Qədim əfsanəyə görə, mirvari dul və yetimin göz yaşlarının rəmzidir – M.M.),* iki Nişapur firuzəsi ilə özünün qəşəng boyunbağları ilə, içində yerləşdirilib otuzaltı yaqut, yaxşı və mərifətli bir boyunbağı doqquz qızıl külçəsi ilə, içində mərifətli zümrüd, yeddi qırmızı, iyirmi yaqut, orta mirvari əlli doqquz, onun boyunbağısı özünün qarmağı ilə və qızıl kəpənək qanadları ilə, yaxşı bir qamçı mərifətli mirvarisi ilə, qızıl külçə ilə və qan ilə bəzədilmiş, bir cığa içində üç mərifətli yetim mirvari, dörd qırmızı yaqut və qırx dörd orta mirvari özünün budaqları ilə, boyunbağısı ilə, bir cüt qızıl dünbərçə, bir əmbərçə boyunbağı, köynək yaxalığı, qolbağı və sair.

Tualet üçün: Gümüş səbət, ənlik-kirşanı çəkmək üçün ləvazimat özünün gümüş sinisi ilə, qızıl qutu. Qızıl ilə bəzədilmiş qəşəng güzgü özünün mirvari çərçivəsi ilə, mirvari ədviyyat qabı, sabun nəlbəkisi və sair.

Hamam ləvazimatı: Bir süzən *(taxt üzərinə sərilən ala-bəzək parça – M.M.),* iki qədifə *(hamamda bədəni qurutmaq üçün mələfə – M.M.)* xalis qumaş, iki əl-üz dəsmalı, iki daraya *(böyük ipək örtük, parça – M.M.)* boxçası, bir iki üzü də xovlu olan kiçik xalı, bir keçə, çimmək üçün bir böyük gümüş cəm, çoğrato *(su qabı –M.M.)* hamam üçün bir teşt, bir su qızdırmaq üçün kuzə, bir qazan.

Alt paltarları: Köynək və onun dəsti doqquz-doqquz, Bursanın doqquz, Mərdinin doqquz, Ferrand novu doqquz *(Qırmızı qadın şalvarı – M.M.)*; köynək düyməsi mərifətli incidən doqquz gilə, şeidişi *(Qırmızı rəngli yuxa ipək parça – M.M.).*

Donlar: İsfahan dəbli sarı firuzə ilə işlənmiş don, qızıl Gilan düyməsi ilə; qırmızı İsfahan qumaşından don, doqquz mirvari düymələr və özlərinin yuvaları ilə; bənövşə rəngli qumaş Yəzd donu, sıra ilə tikilmiş Gilan düymələri və onların yuvaları ilə; sarı qızıl saplarla toxunmuş don, sıra ilə düzülmüş Gilan düymələri ilə; qırmızılı və yaşıllı, çəkili don, yeddi mirvari düyməsi və özünün yuvası ilə; fransız atlas don, küləş rəngli iki həşgə ilə, doqquz cüt qızıl çəprəsti ilə *(qaşla-inci ilə – M.M.)*; ipək parçadan doqquz ədəd bafta don: üçü qırmızı, üçü bənövşəyi və üçü yaşıl; zərçəkili don beş, sadə çəkili don doqquz; sadə qəşəng fransız donu rəngli-rəngli doqquz; firuzə rəngli iki, nar çiçəyi rəngində iki, fıstıq rəngində üç, narıncı rəngində bir və sair.

Yataq otağı üçün: böyük Kirman keçəsi, qızıl saplarla tikilmiş süzən, xalis dovri *(plov qabı – M.M.)* bir gümüş tulufdan *(tulub, su qabı – M.M.),* dörd pərdə, taxçapuş altı *(taxça üzərinə salınan pərdə – M.M.).*

Qab-qacaq: Çin və Venesiya nimçəsi və cəmi, surə, kiçik büllur bakal, qızıl kasa, gümüş piyalə, sanajure-gümüş qab *(şərabın artığını tökmək üçün – M.M.),* gümüş tasğaşuğ *(tas qaşığı, çömçə - böyük taxta qaşıq –M.M.),* qızılı bəzədilmiş süfrə bıçağı.

Mətbəx üçün: Pişbuxar *(Buxarın önünə qoymaq üçün sipər – M.M.),* özünün naxışlı atəşgahı ilə şəbəkə və nəqqaşı ilə, bahalı dəridən zirandaz *(ayaq altına salınan kiçik palaz – M.M.),* tava və tangira *(qulpsuz iri mis qazan – M.M.),* Ğabi *(qab – M.M.)* və sərpuş, avgərdən, ət qızartmaq üçün tava, xakəndaz, manqal, niamdan *(bahalı qabların saxlanıldığı qutu- M.M.),* şiş, xatriti *(şişlər üçün içi dərin gildən yanları deşik gil qab – M.M.)* və sair *(Yazı-pozu cəmiyyətinin əlyazması, № 1287, tərtib etdi “İveriya”, 1889-cu il, № 234 və “Gürcüstanın qədim əşyaları”, 1910-cu il, III cild, səh. 482, 485, 490).*

*(ardı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:*

***Mirzə MƏMMƏDOĞLU.***

# SƏNAYE 4.0



İlk dəfə 2012-ci ildə əsas sənaye yeniliklərinin mərkəzi hesab edilən Almaniya yeni bir sənaye dövrünə keçid planını hazırladığını elan etdi və ilk dəfə olaraq "Sənaye 4.0" terminini gündəmə gətirdi. "Sənaye 4.0" müasir dünyamızda elmin və texnologiyanın köməyi ilə yaxın gələcəkdə baş verə biləcək yeni bir sənaye inqilabına verilən addır.

Bundan 6 il sonra 2018-ci ildə beynəlxlq miqyasda tanınan və ölkələrin gələcək iqtisadiyyatlarına istiqamət verən Dünya İqtisadi Forumunun (WEF) həmin il üçün hazırlanmış hesabatında 4-cü sənaye inqilabı sihayıda yer alan əsas mövzulardan biri olmuşdur. Hesabata əsasən, 4-cü sənaye inqilabının mürəkkəbliyi, əhatə dairəsi və miqyası indiyə kimi görünməmiş dərəcədə geniş olacağı, bəşəriyyətin yaşayış şəraitini, həyat normalarını və düşüncə tərzini kəskin şəkildə dəyişəcəyi hesab edilir. Bəzi alimlər hətta bu inqilabın bəşər və insan sözünün təriflərini dəyişəcəyini iddia edirlər. Dünya İqtisadi Forumunun qurucusu və rəhbəri Klaus Şvab öz kitabında yeni sənaye inqilabının potensialının qorxunc olduğunu və inqilabı bəşəriyyət üçün həm böyük şans, həm də görülməmiş təhlükə kimi dəyərləndirir. Bəs belə bir forumun diqqət mərkəzində olan 4-cü sənaye inqilabını fərqləndirən əsas cəhətlər, onun əsas prespektivləri və təhlükəli xüsusiyyətləri nələrdir?

4-cü sənaye inqilabının tərifini tapmaq üçün ilk öncə tarixə qayıdıb digər inqilabların necə baş verdiyinə nəzər salmaq lazımdır. İlk sənaye inqilabı reallaşana qədər dünyada inkişaf etmiş mədəniyyətlər belə hər hansı məhsul istehsal etmək, qurmaq və ya inşa eymək üçün əsasən insan gücünü və fiziki əməkdən istifadə edirdilər. Bu vəziyyət XVIII əsrin ortalarına, ilk sənaye inqilabının baş verməsinə kimi davam etdi. Tarixə birinci sənaye inqilabı kimi düşən hadisə suyu və buxarı istifadə edərək, istehsalı müəyyən qədər mexanikiləşdirməkdən ibarət idi. İkinci sənaye inqilabı zamanı isə bəşəriyyət elektriklə tanış oldu və kütləvi istehsala başladı. Bu dövr zamanı elektrik vasitəsilə insanlar istehsal olunan məhsulların miqdarını və miqyasını əvvəllər görünməmiş şəkildə qat-qat artırdılar. Nəhayət, ötən əsrin ortalarında isə 3-cü sənaye inqilabı, digər adı ilə, rəqəmsal inqilab baş verdi. Bu dövrdə elektronika və texnologiya sayəsində insanlar istehsalı avtomatlaşdıra və daha da ucuzlaşdıra bildilər. 4-cü sənaye inqilabı isə iş yerlərində süni ağıllı texnologiyaları tətbiq etməklə 3-cü inqilabın avtomatlaşdıra bilmədiyi bütün sahələri avtomatlaşdıra bilər. Bu sənaye inqilabını fərqləndirən əsas cəhət onun sürəti, əhatə dairəsi və sistematik effektidir.

Günümüzdə ölkələr arasında bu yeni növ sənayeyə keçid dövrü artıq başlamışdır. Sözsüz ki, bu sihayıda yer alacaq ilk ölkələr dünyanın ən güclü və yeniliyə açıq iqtisadiyyata malik ölkələr olacaqdır. Sənaye inqilabları hər zaman onun ilk baş verdiyi regiona və ölkələrə böyük bir üstünlük və zənginlik gətirmişdir. Yeni sənayeləşən və inkişaf etməkdə olan bizim regionumuzda isə hələ ki bu barədə irəliləmə görünmür. Təəssüflər olsun ki, Qafqaz əvvəlki 3 böyük sənaye dövründə yeniliklərdən çox uzaq olmuş, bu yeniliklərdən çox gec yararlana bilmişdir. Regionumuz ilk sənaye dövrünə 100 il, ikinci sənaye dövrünə 50 il, üçüncüsünə isə 20-30 il gecikmişdir.



Bunun münaqişələr, regiondakı qeyri-sabitlik, yeniliyə qarşı düşüncələr kimi bir çox səbəbləri var idi. Ancaq hazırda bu kimi baryerlər aradan qalxmışdır və bizim dördüncü dövrə vaxtında keçid etmək imkanımız vardır.

Tanınmış elektronika və texnologiya mütəxəssisi Ali Rıza Ersoy öz açıqlamalarında "Sənaye 4.0"ün sadəcə yeni bir dövr olmaqla kifayətlənmədiyini, hər bir ölkənin öz varlığını davam etdirməsi üçün zərurət olduğunu qeyd edir. Onun fikrincə, bu dövrə inkişaf etmiş ölkələrlə yanaşı, inkişaf etməkdə olan ölkələrin də ilk sıralarda keçid etmək imkanı vardır. Bunun üçün həmin ölkə qarşıdakı 5 il ərzində sənaye istehsalatının sadəcə 3-4 %-i qədərini bu istiqamətə yönəldərək ciddi nəticələr əldə etməsi mümkündür.

Ölkəmizin digər dövrlərlə müqayisədə 4-cü sənaye dövrünə daha tez keçid edəcəyinə şübhə yoxdur. Ancaq dünya miqyasında götürsək nəinki təkcə Gürcüstan, regionumuz da bu baxımdan yenə də geridə qalır. Ümid edək ki, getdikcə sürətlənən dünyamızda yenilikləri və rəqabət qabiliyyəti ilə seçilən milli iqtisadiyyatımızla var olmağımızı davam etdirəcəyik.

**Səlahəddin PİRİYEV**

*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

# VAXTIN DƏYƏRİ

Vaxt mənşəcə ərəb sözüdür – zaman bildirir. İşlənmə məqamından asılı olaraq zamanın müxtəlif çalarları var. Məsələm, "vaxt gələr, peşman olarsan", "vaxtsız açılan gül tez solar", "vaxtı çox olan, sözü çox olar" və sair.

Vaxtla bağlı o qədər müdrik deyimlər, atalar sözləri, ifadələr var ki, sayı-hesabı bilinməz. Əslində, bu dünyada vaxtdan dəyərli heç nə yoxdur. Çünkü hər kəs vaxtdan istifadə edir, kimisi vaxtını səmərəli işlədir, kimisi isə boşu-boşuna. Əslində isə, "vaxt qızıldan dəyərlidir", ancaq nədənsə bir qəpiyinin belə qədrini bilən insan vaxtın qədrini yetərincə bilmir. Qızıldan dəyərli olan vaxtımız bizə ömrümüzün sonuna kimi pulsuz verilib. Bəlkə də buna görə.

Düşünürəm ki, bəzi insanlar vaxt gözə görünməzdir deyə onun nə qədər dəyərli olduğunu anlamırlar. Bilirik ki, dünyada ən punktual millət almanlardır, buna görə də almanlar dünyanın ən dəqiq və mədəni xalqı hesab olunur. Dəqiq olmağın özü də böyük bir mədəniyyətdir. Həyatımızda bu qədər önəmli olan zamanı, vaxtı Allah bizə pulsuz bəxş edib. Vaxt bizə dəyərini saxlamağımız və səmərəli işlətməyimiz üçün verilmişdir. Həyatımızda bu qədər vacib yer tutan vaxtın dəyərini gəlin elə vaxtında bilək. Boş oturduğumuz zaman belə "mən nə qazandım" deyə düşünməyin özü də vaxtdan istifadədir. Hər işi vaxtında gör ki, bu gündən sabaha vaxt qalsın.

Məktəb həyatımızdan bir misal gətirmək istəyirəm: telofonda boş vaxt keçirdiyimizə görə gec yatıb, səhər tez dura bilməyib dərsə gecikdiyimiz günlərimiz çox olub, məhz vaxtında yatmadığımız üçün dərsə gecikmişik. Buna görə, bəlkə də heç səhər yeməyini yemək üçün də vaxtımız qalmayıb. Daha sonra isə dərsimizin bir neçə dəqiqəsini belə qaçırmışıq, dərsdə nələrdən danışıldığından, nələri qaçırdığımızdan belə xəbərimiz olmayıb.

Doğrudan da, hər şey vaxtında gözəldir. Boş vaxt keçirdiyimiz zaman belə itirəcəyimiz bir şeylərin olmamasına diqqət etmək çox vacibdir.



Bunun özü də bir mədəniyyətdir. Həyatın özü bizə zamanla birlikdə bir dərsdir. Kimisi bu dərsdən böyük təcrübə qazanır, kimisi olduğu kimi qalır. Bu dərsin sınağından uğurla çıxmaq üçün isə vaxtımızın qədrini elə vaxtında bilməliyik.

**Nərgiz Bağırlı**

*İlia Dövlət Universitetinin Arxitektura və Kompüter dizaynı fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru “იენი იოლი” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR
2020-Cİ İL
№018 (122)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## KORONAVİRUS SİMPTOMLARI OLANLAR VƏ EVDƏ MÜALİCƏ OLUNANLAR NƏ ETMƏLİDİRLƏR?



Gürcüstanın Səhiyyə Nazirliyi koronavirusa yoluxduğunu güman edən, evdə müalicə olunan şəxslərin necə hərəkət etməli olduğu barədə protokol yayımlayıb. Sənədə əsasən, respirator və ya başqa simptomları olan şəxs ilk növbədə həkimlə əlaqə saxlamalıdır:

• Ümumi səhiyyə proqramının benefisiarı öz ailə həkimi ilə (əgər varsa) və ya sağlamlığın müdafiəsi proqramı çərçivəsində planlı ambulatoriya xidməti göstərən müəssisə ilə əlaqə saxlamalıdır.

• Sığorta sxeminə qoşulmuş şəxs sığorta şirkəti/sığorta şirkətinin ailə həkimi ilə əlaqə saxlamalıdır.

• Ümumi səhiyyə proqramının benefisiarı olan, ancaq heç bir müəssisədə qeydiyyatda olmayan şəxs Səhiyyə və Sosial Müdafiə Nazirliyinin qaynar xətti ilə (1505) əlaqə saxlamalıdır; 112-yə zəng edilərsə Səhiyyə və Sosial Müdafiə Nazirliyinin qaynar xəttinə (1505) istiqamətləndiriləcək.

• Ümumi səhiyyə proqramının benefisiarı olmayan və özəl sığorta sxeminə qoşulmamış şəxs Səhiyyə və Sosial Müdafiə Nazirliyinin qaynar xətti (1505) ilə əlaqə saxlamalıdır.

• Əgər tənəffüs çətinliyi yaxud başqa simptomları olan xəstə ailə həkiminin/tibb müəssisəsinin əlaqə məlumatlarını bilmirsə, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin qaynar xətti (1505) ilə əlaqə saxlamalı və ya “ambulatoria.moh.gov.ge” portalına daxil olaraq məlumatları öyrənməlidir.

Klinika isə öz növbəsində simptomları olan xəstələrin idarə olunmasını təmin edir: gündəlik rejimdə saat 18:00-a qədər; qeyri-iş saatlarında xəstə tərəfindən edilən zənglərə növbətçi operator və ya avtomat qurğu cavab verəcək, növbəti gün isə həkim tərəfindən müşahidə aparılacaq.

**Xəstəxananın öhdəlikləri bunlardır:**

• Gün ərzində, həmin gün və əvvəlki gün saat 6-dan səhərə qədər avtomatik cavab verən qurğuya gələn zənglərə telefon konsultasiyası həyata keçirsin;

• Səhiyyə və Sosial Müdafiə Nazirliyi tərəfindən müəyyən edilmiş protokola əsasən telefon vasitəsilə məsləhətlər versin;

• Bütün telefon məsləhətləri zamanı özünütəcrid qaydalarına ciddi riayət olunması və evdə qalmağın əhəmiyyəti xüsusi qeyd edilməlidir;

• Telefonla məsləhətlərdən sonra tibbi sənədlərdə (ambulatoriya kartı) məlumat qeyd olunsun. Tibbi sənədlərdə həmçinin konsultasiyanın hər hansı mərhələsində xəstənin müşahidəyə ehtiyac duymadığı barədə qərarı təsvir olunmalıdır;

• Əgər telefon kommunikasiyası halında təcili təxirəsalınmaz yardım briqadasının qoşulmasına ehtiyac yaranarsa, telefon zəngi vasitəsilə 112-nin operatoruna (ailə həkimi üçün xüsusi ayrılmış nömrədə) xəstənin adı, soyadı, ünvanı, eləcə də təcili yardım briqadasına ehtiyac yaranmasının səbəbi barədə məlumat versin.

*Mənbə: bpn.ge*

## XƏSTƏXANALARDA ÇARPAYI SAYI NƏ QƏDƏRDİR?



“Galt&Taggart” Gürcüstanın səhiyyə sektoru barədə məlumat yayımlayıb. Məlumat səhiyyə sektorunun həcminə, dövlət və vətəndaşların səhiyyə xərclərinə aiddir.

Sənədə əsasən, Gürcüstanda cəmi 265 xəstəxana qeydiyyatdan keçib, həmin xəstəxanalarda isə ümumilikdə 17,500 çarpayı var. Belə ki, ölkədə orta hesabla bir xəstəxanada 66 çarpayı var.

Hesabata əsasən, hər 1000 vətəndaşa 4,7 çarpayı düşür. Müqayisə üçün qeyd edək ki, regionun digər ölkələrində hər 1000 nəfərə xəstəxanada çarpayı yerləri bu cürdür: Rusiya – 7,1 çarpayı; Türkiyə – 2,9 çarpayı.

Hesabatdan aydın olur ki, Gürcüstanın hospital sektorunda ən böyük oyunçu “Gürcüstanın Səhiyyə Qrupu”dur (GHG), xəstələrin 17 %-i bu qrupun öhdəliyinə düşür. İkinci yerdə “Aversi” klinikalarıdır, xəstələrin 8 %-i onların payına düşür; “Geo Hospitals” 6 %; “Vivo Medical Group” 2 %, “Quduşauri klinikası” 2 %, “New Hospitals” 2 % xəstə qəbul edir. “Galt&Taggart”a əsasən, 62 % digər səhiyyə müəssisələrinin payına düşür.

Ölkə miqyasında 2019-cu ildə xəstəxanaların orta hesabla gündəlik işləmə səviyyəsi 49 % idi. Müvafiq olaraq 17,500 çarpaydan təxminən 8750 çarpayı gündəlik şəkildə istifadədədir. Region ölkələrinin xəstəxanalarının iş səviyyəsi əsasən 70 %-i aşır, Ukrayna, Rusiya və Qazaxıstanda isə 80 %-dən də yüksəkdir.

Statistikaya əsasən, 2019-cu ildə ölkədə 551 min xəstə klinikalara yerləşdirilib, bir xəstənin klinikada keçirdiyi günlərin ortalama müddəti 4,9 gün olub. Müqayisə üçün qeyd edək ki, Rusiyada xəstəxanada qalmanın orta müddəti 10 günü, Ukraynada 11 günü ötür, Ermənistanda isə bu göstərici 8 gün təşkil edir.

Gürcüstanda xəstəxanaya yerləşdirilmə səbəbləri isə belə bölünür:
Tənəffüs sistemi xəstəlikləri – 22 %;
Qan-damar sistemi xəstəlikləri – 19 %;
Hamiləlik, doğuşdan əvvəlki dövr – 10 %;
Həzm sistemi xəstəlikləri – 8 %;
Travmalar, zəhələnmələr – 7 %;
İnfeksiya xəstəlikləri – 6 %;
Digər – 29 %.

Hesabata görə, Gürcüstanda 30 mindən artıq həkim və 18 mindən artıq tibb bacısı işləyir. Hər həkimə 0,6 tibb bacısı düşür. Hər 1000 nəfərə isə 8,5 həkim düşür.

*Mənbə:bm.ge*

## BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN HƏCMİNƏ GÖRƏ KVEMO KARTLİ İKİNCİ YERDƏDİR

Həyata keçirilmiş birbaşa xarici investisiyaların həcminə görə bölgələr arasında Acarıstan öz mövqeyini itirib. Milli Statistika İdarəsinin ilkin məlumatına əsasən, həyata keçirilmiş invesitisiyalara görə Acarıstan həmişə ikinci yeri tuturdu, ancaq cari ilin üçüncü rübünə olan göstəricilərə əsasən, dördüncü yerə keçərək Kvemo Kartli, Şida Kartli və Mtsxeta-Mtianeti bölgələrindən geridə qalıb.

Məlumata əsasən, Gürcüstanda həyata keçirilmiş birbaşa xarici investisiyaların həcmi 2020-ci ilin 3-cü rübündə 302.6 milyon ABŞ dolları təşkil edib. Bu isə 2019-cu ilin 3-cü rübünün göstəricilərindən 23,6 % az, 2020-ci ilin 2-ci rübünün ilkin göstəricilərindən isə 25,2 % çoxdur.

Birbaşa xarici investisiyaların həcminə görə ilk 5 bölgənin siyahısı isə belədir:

• Tbilisi – 222.8 milyon ABŞ dolları;
• Kvemo Kartli – 38.0 milyon ABŞ dolları;
• Şida Kartli, Mtsxeta-Mtianeti – 14.1 milyon ABŞ dolları;
• Acarıstan – 13.3 milyon ABŞ dolları;
• Samtsxe-Cavaxeti – 12.1 milyon ABŞ dolları.

*Mənbə: bpn.ge*

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.